ISSN: 2181-4341, IMPACT FACTOR (RESEARCH BIB) – 9.145, SJIF – 5,431

Ulduz Fərhad Qəhrəmanova

filologiya üzrə fəlsəfə doktoru,

Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Ədəbiyyat" kafedrasında dosent,
ulduzkahraman1@gmail.com,

Orcid İD: 0009-0003-4418-9319

ÜSLUB METODUN XÜSUSI TƏZAHÜR FORMASı KIMI

Annotasiya:

Məqalədə üslub və metod problemi paralel şəkildə təhlil edilmişdir. Həmçinin bədii metodun sənətkarları bir-birinə yaxınlaşdırması, fərdi üslubun isə sənətkarları əhəmiyyətli dərəcədə fərqləndirməsi izah edilmişdir. Tədqiqatçı hesab edir ki, müəllifi məhz onun fərdi üslubu vasitəsilə tanıya bilirik. Eyni ədəbi metodla əsərlər yazan, eyni mühitdə yaşayan, eyni əqidəli sənətkarlar belə bir-birinə bənzəmir kimi əsaslı fikirlər müəllif tərəfindən nəzəri təhlil edilmişdir.

Açar sözlər

üslub, fərd, metod, təzahür forması

STYLE AS A SPECIAL FORM OF MANIFESTATION OF THE METHOD

Abstract:

The unity of the method manifests itself in the writer's own style, depending on the specific nature of his talent, cultural environment, personal life experience, etc. Therefore, style is a special concrete form of manifestation of the method. The method determines the main direction of development of the writer's creativity. Style is the individual manifestation of the method observed in the artist's creativity.The artistic creativity of the artist is directly related to his biography. Therefore, we can find the manifestation of the artist's personality in the work of each artist. That is, in the choice of the topic, its evaluation, the narrator's speech, etc. Therefore, the ideological content and artistic characteristics of the work are entirely related to the individual creative world of the artist, that is, his style.

Keywords

style, individual, method, form of manifestation

Ədəbiyyataşünaslıqda üslub sözünün mənası "üsul, tərz" deməkdir. Üsluba bəzən də stil deyirlər. Üslub müxtəlif sənət adamlarının yaradıcılığında özünü göstərən, fərdi, fərqləndirici bir sənətkarlıq komponentlərinin vəhdətidir. Hər bir sənətkarın da özünəməxsus fərdi üslubu vardır. Üslub sənətkarın fərdi, yəni özünəməxsus yazı manevrasıdır, fikrini ifadə etmə üsuludur. Üslub əvvəlcədən hazırlanıb, bədii əsər yazarkən tətbiq olunmur. Üslub yaradıcılıq prosesi zamanı yavaş-yavaş kəşv edilir, özünü göstərir, formalaşıb sistem halını alır. Üslub, stil anlayışı yunan mənşəli styilos sözündəndir. İki mənası var:

- Yazı aləti, qrifil
- Nitqi təqdim üsulu

"Üslub, bu hər şeydən əvvəl insandır" qənaəti odur ki, insan sosial varlıq olsa da, fərdi keyfiyyəti olmasa şəxsiyyət kimi formalaşa bilməz. Hər bir insan özlüyündə fərddir, sənətkar da bir insandır. Onun üslubunun bənzərsizliyini təmin edən də məhz bu amillərdir.

Bədii metod sənətkarları bir-birinə yaxınlaşdırırsa, fərdi üslub sənətkarları əhəmiyyətli dərəcədə fərqləndirir. Biz müəllifi məhz onun fərdi üslubu vasitəsilə tanıya bilirik. Eyni ədəbi metodla əsərlər yazan, eyni mühitdə yaşayan, eyni əqidəli sənətkarlar belə bir-birinə bənzəmir. Onların yaradıcılıqlarında nə qədər ümumi cəhətlər olsa belə əsl sənətkarlar bənzərsizdir. Yaradıcılığa bu bənzərsizliyi verən isə sənətkarların fərdi yaradıcılıq üslubudur. Məsələn: A.Puşkin, L.Tolstoy, İ.Turgenev eyni dövrdə yaşasalar da, əsərlərində eyni həyatı əks etdirsələr də, C.Məmmədquluzadə, M.Ə.Sabir tənqidi realizmin nümayəndələri olsa da, onların heç birinin fərdi yaradıcılıq üslubu bir-birinə bənzəmir. Yazıçılar eyni konkret mövzuda, hətta eyni süjet əsasında əsərlər yazsalar belə onların üslub fərdiyyəti asanlıqla bir-birindən seçilir.

Üslub metodun xüsusi konkret təzahür formasıdır. Tədqiqatçılar tərəfindən üslub probleminə 3 fərqli baxış özünü nümayiş etdirmişdir:

1.Üslub bədii dil, nitq hadisəsi kimi dərk olunur. (dilşünaslıqda)

2. Üslub bədii əsərin forma komponenti kimi dərk edilir. (ədəbiyyatşünaslıqda)

3. Üslub bədii əsərin məzmun komponenti kimi dərk edilir. (ədəbiyyatşünaslıqda)

Tədqiqatçı akademik V.Vinaqradov üslubu "müəllif obrazı" çərçivəsində izah edirdi. Çünki "müəllif obrazı"nda müəllifin dili gizlənir. Üslub termini ilə yanaşı üslubi-təmayüllər adlı termin də vardır. Üslubi-təmayüllər "müəllif obrazları"nın birləşməsi ilə, yəni ayrı-ayrı fərdi yazıçı obrazına aid üslubların birləşməsi nəticəsində formalaşır. Deməli, üslubi-təmayül üslubların birləşməsi, üslubların cəmidir.

Hər bir yazıçının özünəməxsus sevimli mövzuları olur. Belə ki: biri təbiətdən, biri ziyalıların, digəri fəhlələrin, sadə peşə adamlarının, biri gənclərin, digəri uşaqların həyatından, biri kənddən, digəri şəhərdən yazmağı xoşlayır. Eyni ədəbi cərəyana, ədəbi məktəbə mənsub yazıçıların müxtəlif fərdi üslubda əsərlər yazmaları da qanunauyğun haldır. Sənətkarlar müxtəlif ədəbi metodlardan istifadə etsələr də, müxtəlif dövrlərdə yaşasalar da, bəzən elələri olur ki, yazı manerası, üslub etibarı ilə bir-birinə yaxın olurlar. Məsələn: Puşkin-S.Vurğun, Qoqol-Cəlil Məmmədquluzadə, V.Mayakovski-N.Hikmət-R.Rzanın yaradıcılıq üslubları arasında bir yaxınlıq, oxşarlıq vardır.

Üslub məsələsi birbaşa yazıçının dili, fikrini nə şəkildə ifadə etmək qabiliyyəti, ustalığı ilə bağlıdır. Üslub fərdiyyəti ilə bağlı Jül Renarın maraqlı fikirləri vardı: "Üslub bütün üslubların yaddan çıxarılmasıdır". Ədəbiyyatşünaslar üslubla bağlı maraqlı deyimlər irəli sürmüşlər: "Aydın üslub ədəbiyyatın nəzakətidir"; "Üslub gərək elə dəqiq, aydın, qabarıq, qısa olsun ki, özünü ayağa qaldıra bilsin"; "Mənim üslubum özümü boğur"; "Yazıçı öz dilini özü yaratmalıdır, daha qonşusunun dilini işlətməməlidir"; "Elə etmək lazımdır ki, sənin üslubun öz gözlərinin qabağında böyüyüb püxtələşsin" və s. S. Moem demişkən: "Qısa və aydın yazmaq səmimi və xeyirxah olmaq çətindir".

“Üslub yazıçının həyatda gördüyü faktları yalnız öz marağına, qələminə məxsus hadisələrdən istifadə edərək poetik dona çevirmə bacarığının formalaşmasıdır”. (U.Q.) “Üslub birbaşa yazıçının öz fərdi dili, öz fərdi düşüncəsidir”. (U.Q.) Bədii yaradıcılıq fərdi xarakter daşıyır. Hər bir əsərdə müəllifin öz fərdi aləmi, dünyagörüşü, elmi və mədəni səviyyəsi, cəmiyyətə münasibəti, təəsssürat və mədəni səviyyəsi, həyəcanları əks olunur. İki insanın hərəkəti, nitqi, səsi eyni ola bilmədiyi kimi, iki yazıçının yazı tərzi də eyni ola bilməz. Bu fərq ədəbiyyatşünaslıqda üslub, yaxud stil adlanır. Bu elə güclü, ilk baxışda nəzərə çarpan elə aşkar əlamətdir ki, bizə təqdim olunan imzasız misraların, yaxud bədii parçaların tanıdığımız şəxsiyyətlərdən kimə aid olduğunu təyin etməyə şərait yaradır.

Bir yazıçının yaradıcılıq xüsusiyyətlərinə, onun sırf fərdi, orijinal yazı tərzinə, onu digər yazıçılardan ayıran ideya-sənətkarlıq xüsusiyyətləri məcmusuna üslub yaxud stil deyilir. Üslubu şərtləndirən ən mühüm amillərdən biri yazıçının dünyagörüşü, onun həyata baxışı ilə əlaqədardır. Belə ki, yazıçı həyatda gördüyü hadisələrin hamısından yox, yalnız onu maraqlandıran hadisələrdən sənət əsərlərində müraciət edir. Ədəbi prosesin məqsədi sanballı bədii əsərlər yaratmaqdan ibarətdir. Ədəbi prosesdə ədəbi metod ilə fərdi yaradıcılıq üslubu bir-birilə qarşılıqlı əlaqədədir. Hər bir yazıçı qələm dostları ilə eyni dövrdə yaşasa, eyni problemlərlə üzləşsə, eyni əqidə, amal uğrunda mübarizə aparsa belə, o bir fərdiyyət kimi bənzərsizdir. Fərdi yaradıcılıq üslubunu şərtləndirən ən başlıca amil də elə budur. Bədii yaradıcılıqda bir yazıçının, şairin bədii təsvir üsulunu o biri yazıçıların təsvir üsulundan fərqləndirən bütün poetik elementlərin cəminə üslub, stil deyilir.

Stil (üslub) həyat həqiqətinin obrazlı ifadəsini bədii ədəbiyyatda ayrı-ayrı fərdlər-yazıçılar tərəfindən özünü göstərən bir sənət komponentidir. Bəzi ədəbiyyatşünaslar belə bir qənaətə gəlirlər ki, dünyada nə qədər yazıçı varsa, bir o qədər də bədii stil vardır. Bu fikirdə müəyyən bir həqiqət olsa da, biz öz əsərlərinin ideyası, mövzusu, kompozisiyası, dili, üslubu etibarı ilə bir-birinə yaxın oan yazıçılara da rast gəlirik. Bədii ədəbiyyatda stil müəyyən bir məzmunu ifadə edən ideya və bədii sistem birliyi deməkdir. Lakin stilcə qruplaşdırılan yazıçıların öz fərdi xüsusiyyətlərini inkar etmək olmaz. Məsələn: Puşkinlə-Lermantov stilcə yaxın olsalar da, Puşkin Puşkindir, Lermantov Lermantovdur. Bədii əsərləri və yazıçıları bir-birinə yaxınlaşdıran və yaxud bir-birindən uzaqlaşdıran cəhətlərdən biri də stildir. Stildə 2 cəhəti nəzərə almaq lazımdır:

- Əsərdə ayrı-ayrılıqda və bütünlükdə bədii sistem əlaqəsi
- Bu sistemin bir sıra əsərlər və bir çox yazıçılar üçün ümumi olması

Bir-birinə yaxın olan yazıçılar dedikdə biz onların dili, ideologiyası, dünyagörüşü, yaradıcılıq üsulu və s. bu kimi cəhətlərini nəzərə almalıyıq. Böyük sənətkarların hər biri yaradıcılıq prosesində öz fərdi stillərini yaradırlar. Ona görə də M.Ə.Sabir, C.Cabbarlı, Səməd Vurğun kimi sənətkarların bir sıra əsərlərini onların imzaları olmasa da, təyin etmək mümkündür. Çünki hər bir yazıçının yaradıcılığında özünəməxsus fərdi cəhətlər, onların imzaları olmasa da, yazıçıları təyin etməyə imkan verir. Belə ki, hər bir yazıçının öz yaradıcılıq yolu, öz yaradıcılıq xüsusiyyətləri vardır ki, bunlar həyatdakı bir hadisəyə yanaşma zamanı fikirdə, bədii dildə, həyəcanda, ifadə tərzlərində, mövzu seçməkdə, süjet qurmaqda, əsərin şəkli cəhətlərində özünü göstərir.

Üslubun 3 dili var:

- Şeir dili: lirik əsərlərə aiddir.
- Dram dili: dramatik əsərlərə aiddir.
- Nəsr dili: epik əsərə aiddir.

Ədəbi prosesin simasını müəyyənləşdirən ayrı-ayrı fərdi üslublar öz dominant xüsusiyyətləri ilə birləşib üslubi təmayül əmələ gətirə bilər. Xalid Əlimirzəyevə görə, üslub sənətkarların yaradıcılığını bir-birindən ayıran, ona xüsusi və orijinallıq gətirən bədii vasitələrdən biridir. Üslub fərdi yaradıcılıqdır. Üslub həm də birdən-birə hazır vəziyyətdə yaranıb meydana çıxmır, tədricən inkişaf edərək təcrübədə, ümumi yaradıcılıq prosesində kamilləşir, müstəqil bədii formaya çevrilir.

Müstəqil üslub, orijinal üslub sənətkarların yaradıcılığını digər sənətkarların yaradıcılığından fərqləndirir. Üslubi fərqə görə yaradıcı şəxsiyyətlər bir-birindən ayrılır, ədəbiyyat tarixində müstəqil, orijinal sənətkar statusu qazanır.

Ədəbi əsər ədəbi inkişafın bir cüzüdür. İctimai həyat dəyişdiyi kimi, bir tarixi dövr başqa tarixi dövrə keçdiyi kimi ədəbi əsərlər də həyatın inkişafı ilə bağlı bir surətdə yaranaraq ictimai inkişafın müəyyən mərhələlərini inikas və ifadə edir. Ədəbi əsər tarixi inkişafdan ayırıla bilməz. Ədəbi əsərin varlığını dərk etmək üçün onun ədəbiyyat tarixinin inkişafındakı mövqeyini də təyin etmək, ədəbi həyata bağlamaq lazımdır. Mühit etibarı ilə yaxın olan bir çox yazıçılar eyni zövqə, eyni fikrə malik ola bilərlər. Bu yazıçılar mədəniyyət, həyatı təcrübə etibarı ilə bir-birindən fərqlənsələr də, yenə də bunların arasında fikir, üslub cəhətdən bir-birinə yaxınlıq vardır. Bunları birləşdirən həyata münasibət və bununla bağlı olan üslubdur. Bir üsluba mənsub olan yazıçılar bir ədəbi məslək, cərəyan, məktəb halında birləşə bilərlər.

Ədəbi cərəyan ədəbi üslub kimi ictimai inkişafın müəyyən bir dövrü ilə əlaqədardır. Həyatın eyni ictimai şəraiti ilə ədəbi metod da bağlıdır. Ədəbiyyat tarixində ayrı-ayrı ədəbi cərəyanlar, üslublar, metodlar yaranır. Bu birlik və ayrılıq yazıçının ictimai həyatdakı mövqeyinin canlı bir ifadəsidir. Yazıçı öz yaradıcılığında müxtəlif sinfi qrup və təbəqələrə öz münasibətini bədii əsərlərində ifadə edir. Bununla da yazıçının ideya mövqeyi formalaşır. Yəni eyni ictimai mühiti müxtəlif yazıçılar eyni ideya mövqeyindən müşahidə edirlər. İstedadına, dünyagörüşünə, mədəniyyətinə, həyat təcrübələri baxımından bu yazıçılar arasında nə qədər fərq meydana çıxsa da, həyatın ideya bədii inikasında bir yaxınlıq meydana çıxır. Bir yazıçının yaradıcılığında müşahidə etdiyimiz üslub bütünlükdə ədəbi prosesdə də özünü göstərir. Bu bədii metodun əsasını təşkil edir.

Metod birliyi yazıçının öz yaradıcılığında onun talantının özünəməxsus xüsusiyyəti, mədəni mühiti, fərdi həyat təcrübəsi və b. asılı olaraq öz üslubunda təzahür edir. Deməli, üslub metodun xüsusi konkter təzahür formasıdır. Metod yazıçının yaradıcılığının əsas inkişaf istiqamətini müəyyənləşdirir. Üslub sənətkarın yaradıcılığında müşahidə edilən metodun fərdi meydanaçıxma xüsusiyyətidir. (U.Q.) Sənətkarın bədii yaradıcılığı özünün tərcümeyi-halı ilə bilavasitə bağlıdır. Ona görə də hər bir sənətkarın öz əsərində sənətkar şəxsiyyətinin təzahürünə rast gələ bilirik. Yəni mövzunun seçilməsində, onun qiymətləndirilməsində, təhkiyəçi nitqində və s. Deməli, əsərin ideya məzmunu və sənətkarlıq xüsusiyyətləri bütövlükdə sənətkarın fərdi yaradıcılıq dünyası, yəni üslubu ilə bağlıdır.

Üslubun 3 təzahür xüsusiyyəti vardır:

- Sənətkara aid əsərlərin hamısında eyni bir dünyagörüşünün, eyni ideoloji mövqeyinin dayanması
- Bütün əsərlərdə yazıçının eyni həyat təcrübəsindən çıxış ettməsi, mövzu seçərkən həyatın daha yaxşı bildiyi sahələrə meyl etməsi
- İdeya-mövzu birləşməsindən əlavə sənətkarın bütün yaradıcılığında xarakterlərin eyni bir ideal mövqeyindən çıxış etməsi. Əlbəttə bu xarakterin bir-birini təkrarlaması deyil. Bu obrazlar mübarizənin məqsədlərinə görə oxşardılar. Mübarizə yolları və fərdi səciyyələri müxtəlifdir.

Yazıçı üslubu ideya, mövzu, xarakter, süjet, dil məsələsində əsas, aparıcı birliyin yazıçının bütün əsərlərində ideya, bədii özünəməxsusluğunu yaradır. Üslub bütün elementlərin kompozisiyasından tutmuş ayrı-ayrı epitetlərə qədər hamısının birliyindən yaranır. Üslub bizim qarşımızda yazıçının təkraredilməzliyini, onun yaradıcılığının özünəməxsusluğunu, keyfiyyətini, başqalarından fərqli xüsusiyyətini müəyyənləşdirir. Metod sənətkarı bir-birinə yaxınlaşdırır, üslub isə onları bir-birindən ayırır. Üslub yazıçının əsərlərini başqa yazıçının əsərlərindən aydıncasına fərləndirən ideya, mövzu, forma özünəməxsusluğudur. Üslub yazıçının yaradıcılıq xüsusiyyətinə sırf fərdi, orijinal yazı tərzinə, onu başqa yazıçılardan ayıran xüsusiyyətlərin məcmusudur.

Üslub metodun konkret təzahür forması kimi

Məlumdur ki, metod sənətkarı bir-birinə yaxınlaşdırır, üslub isə onları bir-birindən ayırır. Üslub metodun xüsusi təzahür formasıdır. Əgər üslub yazıçının fərdi özünəməxsusluğu ilə əlaqələnirsə, metod bundan geniş anlayışdır. Metod da üslub anlayışı ilə bağlıdır. Lakin metod anlayışı yazıçını yaradıcılıq sərhədlərindən kənara çıxarır, ədəbiyyatın tarixi inkişafının geniş perspektivləri ilə bağlıdır. Metod anlayışı bağlıdır:

- Ədəbi cərəyan
- Ədəbi proses

Yazıçı üslubu ədəbi prosesin sadə formasıdır. Üslub yazıçının dünyagörüşünün əsasında formalaşır. Ümumiyyətlə, ədəbiyyatşünaslar tərəfindən bədii metod bir çox əsərlərdə yaradıcılıq metodu da adlanır. Bədii metod, yaxud yaradıcılıq metodu ədəbi-nəzəri fikrin diqqət mərkəzinə XX əsrin 20-30-cu illərində daxil oldu. Azərbaycanda tənqidçilər bədii metodu dövrün üslubu kimi izah edirdilər. Bədii metod sənətkarın həyata münasibətinin və onu bədii obrazlarla əks etdirməsinin tipidir, üsulu, vasitəsidir.

Ədəbi cərəyan ədəbi prosesin (ədəbi dövrün-U.Q.) hadisəsidir. Bədii metod yaradıcılıq prosesinin hadisəsidir. Metodlar yazıçıların şəxsiyyətində, yaradıcılığında birləşərək ədəbi cərəyana daxil olur və onu əmələ gətirir. Bədii metod həyata sənətkar münasibətinin və onun bədii təcəssümünün tipidir. Həyata, gerçəkliyə münasibət sənətkar dünyagörüşünün xarakteri və səviyyəsi ilə bağlıdırsa, deməli, bu bədii metoddur. Göründüyü kimi, metod məzmun yaradıcı, üslub isə forma yaradıcı xassəyə malikdir.

Bəs metod və cərəyanın fərqi? Metod böyük zaman kəsiyini əhatə edir. Ədəbi cərəyan isə kiçik zaman kəsiyini əhatə edir. Şərq "qəvaidi-ədəbiyyə"lərində (ədəbiyyatşünaslığında-U.Q.) səbk sözü də üslub mənasında işlənir. Ədəbiyyatşünaslarımıza görə, Azərbaycan ədəbiyyatşünaslıq, ədəbi tənqid kitablarında səbk sözü yanlış olaraq səpkili kimi yazılıb. Halbuki səbk sözünün mənası səpki deyil, üslub (səbk) deməkdir. (Nizaməddin Şəmsizadə).

Hər bir fərdə uyğun dil tapmaq, yəni obrazı dərinləşdirmək üçün yazıçı lazım gələrsə, dialekt sözlərdən, jarqonlardan da istifadə edə bilər. Məsələn: Bədii əsərdə cinayətkarın, məhbusun, avara, küçə uşağının, caninin, oğrunun öz mühitinə uyğun jarqonla danışması nəinki təbiidir, hətta zəruridir. Deməli, üslub bədii əsərdə bədii obrazın sanki anasıdır, obrazın canı, qanıdır. Üslubla bədii obraz insanın bədəni ilə onun damarından axan qan kimidir. Belə ki, müəllif fikrini bədii əsərdə obraz vasitəsilə ifadə edir, oxucuya çatdırır. Ədəbiyyatşünaslara görə, üsluba münasibətdə 2 nəzəri-metodoloji qüsur mövcuddur:

- Üslub ədəbi cərəyanla eyniləşdirilir.

- Üslub yalnız məzmun komponenti hesab edilir. Lakin üslub həm də forma komponentidir. (U.Q.) Üslub məzmunla forma kateqoriyası arasında körpü rolunu oynayır.

Ən çətin üslub dramatik əsərin üslubudur. Burada dillə, nitqlə iş, əməl, fəaliyyət tam şəkildə üst-üstə düşməlidir. Metod idrak alətidir. (Hegel) Bədii metod həyat həqiqətini obrazlı tərzdə idrak vasitəsi, üslub isə həmin həqiqəti təcəssüm üsuludur. Bu baxımdan ədəbi cərəyanla bədii metodu da eyniləşdirmək olmaz. Yəni: bir var realizm, romantizm ədəbi cərəyanı, bir var realist, romantik metod. Ədəbiyyatşünaslara görə üslub 2 yerə bölünür:

- Fərdi üslub: Fərdi üslubu olmayan yazıçını ədəbiyyat aləmi qəbul etmir. Hər bir yazar öz fərdi üslubunu tapdıqdan sonra "Mən yazıçıyam!" deyə bilər.
- Ədəbi üslub. Fərdi üslubların oxşar xüsusiyyətləri də ədəbi üslabları formalaşdırır. Belə ki, bədii təsvir və əksetdirmə prinsiplərinə görə sənətkarlar müxtəlif ədəbi metodlardan istifadə etsələr də, yazı manerası, üslub etibarı ilə bir-birinə yaxın olurlar. Məsələn: Puşkinlə-Səməd Vurğun, Qoqolla-Cəlil Məmmədquluzadənin, V. Mayakovski-Nazim Hikmət-R.Rza, M.Şoloxovla-İ.Şıxlının yaradıcılıq axtarışları arasında bir yaxınlıq, oxşarlıq olsa da, fərdi üslubları baxımından ilə bir-birinə bənzəmir. Lakin ədəbi üslub baxımından bir-birinə bənzəyirlər. Yaxud ədəbi cərəyan, ədəbi məktəb, ədəbi orqan yaradan sənətkarlar da ədəbi üsluba daxildir: "Molla Nəsrəndin" ədəbi məktəbi, "Fyüzatçılar" və s. Yaxud: Vaqif məktəbi, Füzuli məktəbi və s.

Ədəbiyyatşünaslıqda bədii üslubun həm də 3 forması vardı:

- Nəzm üsubu
- Nəsr üslubu
- Dram üslubu

Metod yazıçının həyata münasibətdəki tipidir. Üslub ilk növbədə yazıçı şəxsiyyəti ilə bağlıdır. Hər yazıçının öz dili, öz üslubu var. Üslub sənətdə fərdiliyin ilkin şərtlərindən biridir. Xalid Əlimirzəyevə görə, üslub həm də birdən-birə yaranıb meydana çıxmır, tədricən inkişaf edərək təcrübədə, ümumi yaradıcılıq prosesində kamilləşir, özünün nəzəri-estetik prinsipləri ilə seçilən müstəqil bədii formaya çevrilir. Buffon deyirdi: "Üslub insandır". Azərbaycan dilində deyilir: "Hər kəs öz dilinin altındadır". Dahi Nizami deyirdi: "Danış görüm sən kimsən". Deməli, üslub insanın (yazıçının, şairin) özünüifadəsidir. Fərdi üslub insanın rəngidir. Fransız yazıçısı və nəzəriyyəçisi Renar deyirdi ki, "Üslub bütün üslubların dəf edilməsidir".

ƏDƏBİYYAT:

1.Xalid Əlimirzəyev, (2008) "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,(2005) "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2000) "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı

9. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

4.Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı

5. Rafiq Yusifoğlu, (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı